# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/17** **24 iyun 2020-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının rəhbər şəxslərinin (İdarəedici partnyor, direktor, baş mühasib, maliyyə müdiri) şəxsi işlərinin reyestrinin aparılması barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə uyğun olaraq, auditor xidməti sahəsində şəffaflığın artırılmasına, informasiya əlçatanlığına və ictimai nəzarətin gücləndirilməsinə nail olmaq üçün Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri olan yerli auditor təşkilatlarının, xarici ticarət nişanından istifadə edən və xarici investisiyalı auditor təşkilatlarının, xarici auditor təşkilatlarının filial və nümayəndəliklərinin rəhbər şəxslərinin (idarəedici partnyor, direktor, baş mühasib, maliyyə müdiri) Auditorlar Palatasında şəxsi işlərinin reyestrinin aparılmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının rəhbər şəxslərinin (idarəedici partnyor, direktor, baş mühasib, maliyyə müdiri) Auditorlar Palatasında bu sərəncamın 1 №li əlavəsinə uyğun olaraq şəxsi işlərinin reyestri aparılsın.

2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində nəzərdə tutulan məsələləri və sərəncamdan irəli gələn digər məsələləri bir ay müddətində həll etsin.

3. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının rəhbərlərinə tapşırılsın ki, bu sərəncamın 1 №li əlavəsinə uyğun olaraq, təşkilatın rəhbər şəxslərinin şəxsi işlərinə dair məlumatı iki həftə müddətində hazırlayıb Palatanın Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə təqdim etsinlər.

4. Bu sərəncamın icrasına nəzarət Auditorlar Palatasının icraçı direktoruna (S.Gülməmmədov) həvalə edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**